# Azərbaycan artıq regional nəqliyyat-logistika sisteminin əsas dayaqlarından birinə çevrilib

**Azərbaycan və Türkiyə Zəngəzur dəhlizini (TRIPP) Orta dəhlizin qlobal halqasına çevirmək istiqamətində addımları sürətləndirir. Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlunun son bəyanatında qeyd etdiyi kimi, Bakı-Tbilisi-Qars dəmir yolunun tam potensialının reallaşdırılması və Azərbaycan-Naxçıvan xəttinin bərpası Orta dəhlizin buraxılış gücünü əhəmiyyətli dərəcədə artıracaq. Bu, təkcə regionun deyil, həm də Avrasiya məkanının logistika xəritəsini dəyişəcək strateji təşəbbüsdür. Rəsmi Ankaranın hədəfi Çinlə Avropa arasında ticarət prosesini Rusiya ərazisindən keçmədən təmin etmək, Türk Dövlətləri Təşkilatını isə qlobal nəqliyyat-kommunikasiya mərkəzinə çevirməkdir.**



Mövzu ilə bağlı AZƏRTAC-a açıqlama verən türk ekspert Engin Özer Cənubi Qafqazda nəqliyyat-kommunikasiya layihələrinin perspektivləri və regional sabitliyin gələcəyi ilə bağlı fikirlərini bölüşüb.

Onun sözlərinə görə, Rusiyadan Avropaya yükdaşımaların həyata keçirilməsi üçün nəzərdə tutulan marşrut layihəsinin dayandırılması Türkiyə ilə deyil, Ukraynada davam edən müharibə ilə bağlıdır. Bu layihənin əsas tərəfdaşlarından biri olan Belarus tətbiq edilən sanksiyalar səbəbindən Avropa tərəfindən qəbul edilmədi. Eyni zamanda Ukrayna bu layihədə Odessa istiqamətində mühüm mövqe tutur. Lakin Ukraynada davam edən müharibə fonunda yaxın illərdə bu layihənin reallaşması ehtimalı çox zəif görünür.

Engin Özer qeyd edib ki, mövcud vəziyyətdə Orta dəhliz layihəsi ön plana çıxır. "Hazırda həm Ukraynadakı müharibə, həm də Yəməndə hücumlar Çindən gələn gəmilərə dolayısı ilə təsir edir. Bu səbəbdən daşınma xərcləri ciddi şəkildə artır. Buna görə də Avropa ilə Çin arasında təcili avtomobil yolu əlaqəsinin yaradılması vacibdir. Məhz bu mərhələdə Türkiyə Orta dəhliz təşəbbüsü ilə əsas rol oynayır", - deyə o vurğulayıb.

Ekspertin fikrincə, Orta dəhliz layihəsinin reallaşması Cənubi Qafqazda davamlı sabitliyin bərqərar olmasına zəmin yaradacaq. "Bu layihə həyata keçərsə, bölgədə uzunmüddətli sabitliyin təmin olunacağına heç bir şübhə yoxdur. Regional gərginliklər əvəzinə, qarşılıqlı faydalı əməkdaşlıq və iqtisadi inkişaf meyilləri güclənəcək. Bütün region ölkələrinin qarşıdurmadan uzaq, dayanıqlı inkişaf və qarşılıqlı əlaqələrə yönələcəyi gözlənilir. Bu isə Cənubi Qafqazın strateji əhəmiyyətini böyük dərəcədə artıracaq" - deyən Engin Özer diqqətə çatdırıb ki, Azərbaycan bu prosesdə öz geostrateji mövqeyini daha da möhkəmləndirəcək.

"Azərbaycan artıq regional nəqliyyat-logistika sisteminin əsas dayaqlarından birinə çevrilib. Orta dəhliz layihəsinin tam reallaşması ilə ölkənin geosiyasi və iqtisadi çəkisi daha da artacaq. Buna görə də bölgədə yaxın perspektivdə gərginlik gözləmək məntiqli deyil", - deyə o əlavə edib.

Politoloq, həmçinin qeyd edib ki, Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq cəhdlərinin arxasında da məhz Orta dəhliz layihəsi dayanır.

"Ermənistan bu prosesdə iştirak etmək niyyətini göstərir və bu istiqamətdə atdığı addımlar davam edəcək. Əgər bu layihə reallaşarsa, Ermənistan üçün də yeni imkanlar açılacaq. Xüsusilə Türkiyə ilə sərhədlərin açılması və iqtisadi əlaqələrin bərpası Ermənistanın Avropa İttifaqına inteqrasiya prosesini sürətləndirə bilər. Bu isə ölkənin inkişafı baxımından strateji əhəmiyyət daşıyır", - deyə Engin Özer vurğulayıb.

O əlavə edib ki, Orta Dəhliz layihəsinin həyata keçməsi təkcə Azərbaycan və Türkiyə üçün deyil, həm də Ermənistan üçün sabitlik və qarşılıqlı etimadın güclənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

"Bundan sonra Cənubi Qafqazda qarşıdurmadan deyil, ortaq layihələrdən, inkişafdan və sabitlikdən danışacağıq. Ermənistanın bu prosesə müsbət yanaşması isə regional inteqrasiyanı daha da sürətləndirəcək", - deyə ekspert fikrini tamamlayıb.

Azərbaycan. - 2025.- 1 noyabr (№ 234).- S.7.